**TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ**
**2021-2023-cü ilin hesabatı**

Universitetdə TEC-in fəaliyyəti AR TN-nin 27 iyun 2014-cü il tarixli 752 nömrəli əmri ilə təsdiq edilmiş "TEC haqqında Nümunəvi Əsasnamə" yə uyğun olaraq tənzimlənir. TEC-in iş planı barədə tələbələr dərs ilinin əvvəlində məlumatlandırılır. Kafedralarda elmi dərnəklər təşkil olunur. Hər təqvim ilində fakültə və universitet elmi konfransları keçirilir. 2019-2020-ci tədris ilinin ikinci yarısında karantinin düşməsi və tədrisin onlayn formatda keçirilməsi ilə əlaqədar olaraq 2020-ci il universitet elmi konfransı keçirilməmişdir.

2017-ci ildən Tələbə Elmi Cəmiyyətinə dos. Lalə Bunyatova rəhbərlik edir. Son illərdə ölkəmizin təhsil sistemində aparılan islahatlar və yeniləşmələr bu qurumun fəaliyyətini daha da gücləndirdi.

İndiyədək TEC-in yeddi elmi konfransı (2015, 2016, 2017, 2018, 2019, 2021, 2022-ci illərdə) keçirilmişdir. Hazırda səkkizinci elmi konfransın keçirilməsi üçün hazırlıqlar görülür (2023). Bu konfranslarda tələbələr məqalə və tezislərlə iştirak etmiş, fəal tələbələr müxtəlif dərəcəli diplomlara layiq görülmüşlər.

Aşağıda qeyd olunan elm və təhsil məsələlərinə dair birgə ictimai tədbirlərdə iştirak edilmişdir:

2015-2018-ci illərdə Rusiya Federasiyasının müxtəlif şəhərlərində keçirilən beynəlxalq konfranslarda; 2015-2022-ci illərdə Bakı şəhərində "ENACTUS" proqramı üzrə keçirilən beynəlxalq yarışda; 2017-2018-ci illərdə Bakı Mühəndislik Universitetinin "Qış Elm Festivalı"nda; 2018-2019-cu illərdə "İ2B– İdeyadan biznesə" və "İdeya var" regionlararası müsabiqələrində, 2019-cu ildə "CanSat Azərbaycan 2019" milli tələbə model peyk müsabiqəsində; 2018-ci il tarixində Ufa Dövlət Neft-Texnologiya Universitetində II Beynəlxalq tələbə olimpiadasında.

TEC-in üzvləri respublika və xarici ölkə universitetləri ilə sıx əlaqələr saxlayır, keçirilən olimpiadalarda, festival və bilik yarışlarında müxtəlif nominasiyalar üzrə qabaqcıl yerlər tutur, beynəlxalq və respublika yarışlarında fəal iştirak edirlər. Bu baxımdan UDNTU-da "Texniki sistemlərdə avtomatlaşdırılmış idarəetmənin əsasları" mövzusunda keçirilən IV Beynəlxalq Olimpiada (2021-2023), "Gənc tədqiqatçıların IV Respublika elmi-praktik konfransında (Azərbaycan Universiteti – 2021), Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş Respublika elmi konfranslarında və digər ümumrespublika tədbirlərində doğma universiteti layiqincə təmsil edirlər.

25 fevral 2021-ci ildə SDU-da Ekologiya kafedrasının təşkilatçılığı ilə "Zoom" platforması üzərindən **"Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi"** mövzusunda keçirilən elmi-praktiki vebinarda TEC üzvləri iştirak etmişlər.
https://www.sdu.edu.az/az/news/1682

22 aprel 2021-ci ildə SDU-da Ekologiya kafedrasının təşkilatçılığı ilə Beynəlxalq Yer kürəsi Gününə həsr olunmuş **"Nizami Gəncəvi yaradıcılığında təbiət sevgisi"** mövzusunda onlayn formatda keçirilən elmi-praktiki vebinarda fakültə TEC üzvləri iştirak etmişlər. https://www.sdu.edu.az/az/news/1738

4-5 may 2022-ci ildə Mingəçevir Dövlət Universitetində (MDU) Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünə həsr olunan **"Heydər Əliyev dühası və müasir Azərbaycan"** mövzusunda elmi-nəzəri konfrans keçirilib. 815-ci qrup tələbəsi Aqşin Əhmədov konfransda iştirak etmişdir.
https://www.muallim.edu.az/news.php?id=20476

10-11 May 2021-ci ildə Bakı Dövlət Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98 illiyinə həsr olunmuş **"Azərbaycanın dövlət müstəqilliyinin**

**möhkəmlənməsi və inkişafında Heydər Əliyevin rolu”** adlı respublika elmi konfransında 4 tələbə iştirak etmişdir.https://mail.muallim.edu.az/news.php?id=15912

14 May 2021-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində dahi Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş **“Nizami Gəncəvi irsi dünya elmi-nəzəri fikrində”** mövzusunda Respublika elmi-nəzəri konfransında 5 tələbə iştirak etmişdir.
https://www.admiu.edu.az/news2021.php?go=63

15-16 May 2021-ci ildə Azərbaycan Dillər Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 98 illiyinə həsr olunmuş **“Heydər Əliyev və Şanlı Azərbaycan”** adlı respublika tələbə-şagird elmi konfransında 5 tələbə iştirak etmişdir.
https://adu.edu.az/az/xeberler/xeberler/4678.html

24 may 2021-ci ildə UDNTU-də qarışıq (əyani və distant) formatda prof. K.F.Boqatıx adına Kimya texnologiyasının proses və aparatları fənnindən **IV beynəlxalq tələbə olimpiadası** keçirildi. Olimpiadaya Kimya mühəndisliyi ixtisası üzrə təhsil alan 311 saylı qrupunun tələbələri: Qönçə Əhmədova, Nərmin Xasıyeva, 312 saylı qrupun tələbəsi Solmaz Məhəmmədzadədən ibarət komanda ilə qatılmışlar.
https://www.sdu.edu.az/az/news/1781

26-27 May 2021-ci ildə Bakı Dövlət Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 103-cü ildönümünə həsr olunmuş **“Azərbaycan Xalq Cümhuriyyəti tarixi tədqiqatlarda”** mövzusunda respublika elmi konfransında 6 tələbə iştirak etmişdir.
https://azertag.az/xeber/BDU_da_Azerbaycan_Xalq_Cumhuriyyeti_tarixi_tedqiqatlarda_movzusunda_respublika_elmi_konfransi_kechirilib-1790855

2021-ci ildə Rusiyanın Tolyatti Dövlət Universitetində təşkil olunan gənc alimlərin VII “Tətbiqi riyaziyyat və informatika: təbiət və texniki elmlər sahəsində müasir tədqiqatlar” adlı elmi praktiki konfransda TEC-in iki nəfər üzvünün məruzəsi dərc edilmişdir.

25-31 İyul 2021-ci il tarixlərində Azərbaycan Gənclər, Naxçıvan Gənclər Fondu və Türkiyə Gənclik Vakfının təşkilatçılığı ilə Naxçıvan MR-da həyata keçirilən Zəfər düşərgəsində, eləcə də “Yayfest-2021” festivalının “Tələbəlik”, “Sahibkarlıq və İnnovasiyalar” düşərgələrində tələbələrimizin fəal iştirakı və layihələrlə çıxış etmələri rəğbətlə qarşılanmışdır.

2022-ci ilin yanvar ayında Azərbaycanın ali təhsil müəssisələrinin tələbələri arasında keçirilən EdTech startup müsabiqəsində SDU-nun iki komandası iştirak etmişdir. 1 layihə Azərbaycan ATM -lərin 10 ən yaxşı komandası arasında yer tutmuşdur.
https://edtechstartup.az/

21 fevral 2022-ci ildə Macarıstanda onlayn şəkildə keçirilən Empowering students to Discover Europe startup müsabiqəsində SDU-nun tələbələri uğurla çıxış etmişdirlər. Komanda, 10 ən yaxşı layihələrin finalına çıxaraq, öz layihəsini ingilis dilində (robototexnika nominasiyasında) online formatda təqdim etmişdilər.
https://www.facebook.com/BBUCareerCenter/photos/a.124724388930763/774364000633462/?type=3&locale=ms_MY

9 mart 2022 – 10 mart 2023-cü il aralığında fakültələrdə **“Elmi işlərin tərtibi qaydaları”** adlı elmi-praktiki seminarlar keçirilmişdir.

17 mart 2022-ci ildə Sumqayıt Dövlət Universitetində **“Qarabağın tarixi: siyasi, iqtisadi, mədəni aspektlər”** mövzusunda Beynəlxalq elmi konfrans onlayn formatda keçirilmişdir. 2 tələbə bu konfransda iştirak etmişdir: Xanım Əzizli, Nuranə Rzayeva. https://www.sdu.edu.az/az/news/2058

5 aprel 2022-ci ildə SDU-nun Kimya və biologiya fakültəsinin tələbələri Kənd Təsərrüfatı Nazirliyinin **Baytarlıq Elmi-Tədqiqat İnstitutu** və onun nəzdində fəaliyyət göstərən **Baytarlıq klinikasında** oldular. Tələbələr institutda fəaliyyət göstərən quş xəstəlikləri, virusologiya, parazitologiya, balıq və arı xəstəlikləri şöbəsi, baytarlıq sanitariyası və

yoluxmayan xəstəliklər şöbəsinin laboratoriyaları və quraşdırılmış ən son model texniki avadanlıqlarla yaxından tanış oldular. https://www.sdu.edu.az/az/news/2080

5 aprel 2022-ci ildə UDTU-nun Avtomatlaşdırma, telekommunikasiya və metrologiya kafedrasının təşkil etdiyi “Texniki sistemlərin avtomatlaşdırılması” adlı **V Beynəlxalq onlayn formatda olimpiada** keçirildi. Əyani və onlayn formatda keçirilən olimpiadada 625-ci qrup tələbələri: Qüdrət Ağazadə, Əli Həsənli, Ceyran Məmmədova və Pərviz Həsənov onlayn formatda iştirak etdilər. Nəticələrə əsasən I mərhələdə 625-ci qrup tələbəsi Qüdrət Ağazadə fərdi formada iki bölmə: texnoloji proseslərin avtomatlaşdırılmasının əsasları və ölçmənin metroloji təminatı üzrə III yerə layiq görüldü. II mərhələ üzrə isə SDU-nun komandası “Məntiqi qurğuların sintezi klassik təqdimat proseduru” nominasiyası üzrə qalib oldu.
https://www.sdu.edu.az/az/news/2077 https://www.sdu.edu.az/az/news/2122

8 aprel 2022-ci ildə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında keçirilən “ŞUŞA İLİ”nə həsr olunmuş **“Cəmiyyətdə innovativ texnologiyalar”** mövzusunda 1-ci Tələbə elmi-praktiki konfransında SDU-nin tələbələri iştirak edərək sertifikatlara layiq görülüblər. https://www.aesma.edu.az/Post/Details/98

12 aprel 2022-ci ildə Janqirxan adına Qərbi-Qazaxıstan aqrar-texniki universitetində tələbə və magistrantların **“ПУТЬ В НАУКУ–2022”** (Elmə yol-2022) adlı beynəlxalq elmi-praktiki konfransında 2 tələbənin tezisləri təqdim olunmuş və qəbul olunmuşdur. https://wkau.kz/ru/obyavleniya/put-v-nauku-2022/

15 Aprel 2022-ci ildə SDU-nun Kimya və biologiya tələbələri **AMEA-nın Mikrobiologiya İnstitutunda** oldular. Tələbələr AMEA-nın Mikrobiologiya İnstitutunda Su və mikrobioloji biotexnologiya laboratoriyası və quraşdırılmış müxtəlif model texniki avadanlıqlarla tanış oldular. https://www.sdu.edu.az/az/news/2100

29 aprel 2022-ci ildə Naxçıvan Müəllimlər İnstitutunda (NMİ) magistrant və doktorantların **“Təhsil, tədqiqat və innovasiyanın vəhdəti”** mövzusunda IV Respublika elmi konfransı keçirilib. Konfransa fakültənin 3 tələbəsi iştirak edərək sertifikatla mükafatlandırılmışlar. https://muallim.edu.az/news.php?id=20318&lang=

11 may 2022-ci ildə Heydər Əliyevin anadan olmasının 99-cu ildönümü münasibətilə UNEC TEC və “GUYS” (Gəncliyə dəstək üçün ümumi birlik) təşkilatı ilə birlikdə **“Heydər Əliyev – Azərbaycan iqtisadiyyatı və mədəniyyəti”** mövzusunda dəyirmi masada iştirak edən fakültə tələbəsi Nübar Osmanova I yerə layiq görülmüş və diplomla təltif olunmuşdur.
https://www.medeniyyet.az/page/news/62411/.html?lang=az

14 may 2022-ci ildə SDU-nun Kimya və biologiya fakültəsinin bir qrup müəllim və tələbəsi Azərbaycanın cənub-şərqində, Lənkəran və Astara rayonlarının inzibati ərazisində yerləşən **"Hirkan" Milli Parkı**na ekskursiya etdilər.
https://www.sdu.edu.az/az/news/2161

22 may 2022-ci ildə Kimya və biologiya fakültəsinin bir qrup tələbələri **Şirvan Milli Parkında** oldular. Ekskursiyanın məqsədi tələbələri beynəlxalq Biomüxtəliflik Günü ilə bağlı parkın zəngin florası və faunası ilə tanış etməkdən ibarət idi. https://www.sdu.edu.az/az/news/2176

2022-ci il mayın 26-da Xəzər Universitetində Dillər və ədəbiyyatlar departamentinin təşkilatçılığı ilə **“Qloballaşma dövründə Türk dünyası: çağırışlar, perspektivlər”** adlı beynəlxalq tələbə elmi konfransı keçirilmişdir. Konfransda fakültənin 5 tələbəsi iştirak etmiş, sertifikatlarla təltif olunmuşlar. https://khazar.org/az/news/6003

2022-ci ilin may ayında keçirilən **TEKNOFEST Aerospace and Technology festivalı**nda SDU-nun iki komandası qatılaraq, final mərhələsinə keçmişlər. https://www.teknofest.az/az/

2022-ci ilin mayında Kimya mühəndisliyi ixtisasının 321-ci qrup tələbələri Aysel Məmmədova, Aygün Mirzəyeva, Təranə Namazova UDNTU-da Kimya texnologiyasının

prosess və apparatları fənnindən keçirilən **V Beynəlxalq tələbə olimpiadası**nda iştirak edib, sertifikatlar qazanıblar. https://www.ufa.kp.ru/online/news/4764953/

26 may 2022-ci ildə Xəzər Universiteti **"Qloballaşma dövründə türk dünyası: çağırışlar, perespektivlər"** adlı Beynəlxalq tələbə elmi konfransında 5 tələbənin tezisləri qəbul edilmiş, əyani şəkildə konfransa dəvət alaraq, konfransda iştirak etmişlər.

26 may 2022-ci ildə Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasında "Şuşa ili"nə həsr olunmuş **"Postmüharibə dövrünün reallıqları və perspektivlər"** mövzusunda Respublika Tələbə Elmi Konfransı onlayn formatda keçırilmişdir. 18 tələbə konfransda çıxış etmiş və sertifikatlarla mükafatlandırılmışlar. https://www.aesma.edu.az/Post/Details/71

27 may 2022-ci ildə Bakı Dövlət Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104-cü ildönümünə həsr edilmiş **"Müsəlman Şərqinin ilk cümhuriyyəti: milli dövlət quruculuğunun elmi-nəzəri əsasları və əsas istiqamətləri"** mövzusunda respublika elmi konfransında tezisləri qəbul olan 2 tələbəmiz bölmə iclasında çıxış etmişlər. https://www.mektebgushesi.az/2022/05/28/bdu-da-28-may-must%C9%99qillik-gunun%C9%99-h%C9%99sr-edilmis-respublika-konfransi-kecirilib/

27 may 2022-ci ildə Riyaziyyat fakültəsinin təşkilatçılığı ilə SDU-nun 60 illiyinə həsr olunmuş Riyaziyyat fənni üzrə I–III kurs tələbələri arasında keçirilən olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirildi.
https://sdu.edu.az/az/news/2194

31 may 2022-ci ildə Sumqayıt Dövlət Universitetində Tarix və coğrafiya fakültəsinin TEC-nin təşkilatçılığı ilə "**Ailədaxili münaqişələr, məişət zorakılığı dövlət və cəmiyyətin ortaq problemidir"** mövzusunda maarifləndirici tədbir keçirildi.
https://sdu.edu.az/az/news/2199

2022-ci ilin may-iyul aylarında Kimya ixtisasının 327-ci qrup tələbəsi Sayılova Lamiyə Müşviq qızı Türkiyədə keçirilən **"LabAkademi"** adlanan simpoziumlarda (onlayn) iştirak etmiş, sertifikatlar qazanmışdır.
https://labakademi.com.tr/iyi-laboratuvar-uygulamalari-glp-egitimi

Azərbaycan Respublikası Gənclər Fondunun 7-27 iyul 2022-ci il tarixlərində keçirdiyi **''İdeyanı Reallaşdır-2022''** Gənclərin Fərdi Lahiyələri üzrə Qrant Müsabiqəsinin qalibləri müəyyən edildi. SDU üzrə Kimya və biologiya fakultəsinin tələbələri, Anar Güllərli "Zərərli vərdişlərə yox deyək!" lahiyəsi və SDU Enactus komandasının kapitanı Şəfa İsayeva "Alternativ resurslar" lahiyəsi ilə qalib oldular. https://www.sdu.edu.az/az/news/2272

16-18 avqust 2022-ci ildə Vilnüs, Litvada keçirilən "International Scientific and Practical Conference RECENT ADVANCES IN GLOBAL SCIENCE" adlı Beynəlxalq Elmi-Praktik konfransına fakültə üzrə 1 məruzə göndərilmişdir. Soltanov Soltan Ramin oğlu (qr.735).
https://archive.interconf.center/index.php/conference-proceeding/article/view/1097/1123

19-20 avqust 2022-ci ildə İsveç Krallığında keçirilmiş **"IV International Scientific and Practical Conference SCIENTIFIC TRENDS AND TRENDS IN THE CONTEXT OF GLOBALIZATION"** adlı IV Beynəlxalq Elmi-Praktik konfransına fakültə üzrə 2 məruzə göndərilmişdir. Hüseynova Nuriyyə Emil qızı (qr.723), Cavadlı Xanımnaz Emil qızı (qr.725a). https://archive.interconf.center/index.php/2709-4685/article/view/1138

26-28 avqust 2022-ci il tarixlərində Varşava Polşada keçirilən **"DIVERSITY AND INCLUSION IN SCENTIFICAREA"** Beynəlxalq Elmi və Təcrübə konfransına fakültə üzrə 2 məruzə materialı göndərilmişdir. Məmmədov Emil Nizami oğlu (qr.722), İsmayılov Elşən Mehdi oğlu (qr.745).
https://archive.interconf.center/index.php/conference-proceeding/article/view/1183

25 sentyabr 2022-ci ildə Sumqayıt Texnologiyalar Parkında keçirilən görüşdə TEC üzvləri iştirak etmişlər. https://www.sdu.edu.az/az/news/2248

27 sentyabr 2022-ci ildə Filologiya fakültəsində TEC-nin təşkilatçılığı ilə Anım günü ilə bağlı **dəyirmi masa** keçirilmişdir. Tədbirdə fakültənin professor-müəllim heyəti, TEC üzvləri iştirak etmişdir.

14 oktyabr 2022-ci ildə Biologiya ixtisasının TEC-nin tələbələri Zoologiya institutunun nəzdində Zoologiya muzeyində ekskursiyada olublar. https://sdu.edu.az/az/news/2295

24 oktyabr 2022-ci ildə Kimya ixtisasının tələbəsi Hümbətova Aysu (qr. 327) Türkiyə - **"Lab Akademi"** tərəfindən keçirilən "Setiltrimetilammoniumbromid və Deoksiribonükleik turşusu" təlimində iştirak etmiş, serfikatla təltif olunmuşdur.
https://labakademi.com.tr/iyi-laboratuvar-uygulamalari-glp-egitimi

10 noyabr 2022-ci ildə AƏSMA-da "Zəfər günü"nə həsr olunmuş "İnsan kapitalı: problemlər, səmərəli istifadə və perespektivlər" mövzusunda I Beynəlxalq Tələbə Elmi-Praktiki Konfransında universitet üzrə 11 tələbə iştirak etmişdir.
https://www.aesma.edu.az/Post/Details/3360

11 noyabr 2022-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetində "Zəfər günü"nə həsr olunmuş **"Şuşanın sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir"** mövzusunda ümumrespublika elmi məqalə müsabiqəsinə 1 məqalə göndərilmişdir. Tələbənin məqaləsi ilk onluğa daxil olmuşdur. Balaşova Rəvanə Elman qızı, qr. 941
https://news.unec.edu.az/elan/87-musabigae/9118-shushanin-sosial-igtisadi-dircheldilmesi-azerbaycanin-tereggisinin-yeni-zirvesidir-movzusunda-elmi-musabige-kechirilecek

7 dekabr 2022-ci Sumqayıt Dövlət Universitetində Elmi kitabxananın, TEC və THİK-nin birgə təşkil etdiyi oxunması zəruri olan kitabların müzakirəsi aparıldı. Tədbirdə 3 kitab: Gi De Mopassanın "Gonbul", Prosper Merimenin "Karmen", İlyas Əfəndiyevin "Körpüsalanlar" əsərləri üzərində şəxsiyyət və ləyaqət problemi müzakirə olundu. https://www.sdu.edu.az/az/news/2360

05-09 dekabr 2022-ci ildə Mühəndislik fakültəsinin tələbəsi Nəcəfli Amin SAF-STEAM AZERBAİJAN FESTİVAL-ında (İnnovativ sərgi kateqoriyası) Pilotsuz uçuş aparatı modeli ilə çıxış etmişdir. Uğurlu nəticə əldə edərək müsabiqənin qalibi olmuş, kubok, hədiyyə və sertifikatla mükafatlandırılmışdır. https://www.saf.steam.edu.az/az/category/101

13 dekabr 2022-ci ildə Ekologiya kafedrasının təşkilatçılığı ilə **SOCAR-ın Etilen-polietilen zavodu**nda ekskursiya təşkil olunmuşdur. https://www.sdu.edu.az/az/news/2467

2022-ci ildə SDU-nun Mühəndislik fakültəsinin tələbələri arasında **Engeneering Startup Perspectives of Sumgait State University** müsabiqəsi təşkil edilmişdir.

21 dekabr 2022-ci ildə fakültənin Elektrotexnika və energetika kafedrasının bir qrup müəllim və tələbəsi kafedra müdiri dosent Nadir Hacıbalayevin rəhbərliyi ilə **Sumqayıt Elektrik Stansiyası**na ekskursiya etdilər. Ekskursiyada iştirak edən nümayəndə heyətimizi əvvəlcə stansiyanın Texniki Təminat şöbəsinin aparıcı mühəndisi Tofiq Qurbanov səmimi qarşıladı və stansiya haqqında geniş məlumat verdi. https://www.sdu.edu.az/az/news/1994

21 dekabr 2022-ci ildə Avrasiya Universitetində "Keyfiyyət təminatı sistemində vəzifə və öhdəliklər" mövzusunda Respublika konfransına 1 məruzə göndərilmişdir.
https://baau.edu.az/az/article/baau-da-keyfiyyet-teminati-sisteminde-vezife-ve-ohdelikler-telebe-elmi-konfransi-87

26 dekabr 2022-ci ildə Kimya və biologiya fakültəsinin ekoloq tələbələrindən ibarət növbəti qrupu Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki **Aqrar Xidmətlər Agentliyi**ndə ekskursiyada oldular. Agentliyin üç şöbəsində olan tələbələr Torpaq, su, bitki, gübrə analizləri şöbəsinin işi ilə tanış oldular.
https://www.sdu.edu.az/az/news/2467

9 yanvar 2023-cü ildə keçirilən Startup School müsabiqəsində magistr tələbəmiz Talıbov Seymur Famil oğlu (qr. M653) iştirak edərək, **The Best Idea Category of "StartUp School** seçilmişdir. https://startupsavant.com/startup-ideas-for-students

8-9 fevral 2023-cü ildə İstanbulda keçirilən **«3rd İnternational Current Scientific Research Congress»** adlı beynəlxalq konfransda fakültənin 1 tələbəsi iştirak etmiş və sertifikatla təltif olunmuşdur.
https://uniwork.buxdu.uz/resurs/18391_1_EEA8183412C329BC3715FDC93FEDB9D25217022D.pdf

16 fevral 2023-cü ildə Sumqayıt Gənclər Evində Azərbaycan Respublikası Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi, Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi və “SUP.VC” şirkətinin təşkilatçılığı ilə regionlarda startap ekosistemi üzrə **“INNOSTART”** maarifləndirmə proqramı çərçivəsində keçirilən görüşdə SDU . professor-müəllim heyəti ilə yanaşı, TEC-nin üzvlərinin də iştirak etmişdir.
https://www.sdu.edu.az/az/news/2489

27 may 2022-ci ildə Bakı Dövlət Universitetində 28 May- Müstəqillik Gününə həsr olunmuş **"Müsəlman Şərqinin İlk Cümhuriyyəti: Milli Dövlət Quruculuğunun Elmi-Nəzəri Əsasları və Əsas İstiqamətləri"** mövzusunda RESPUBLİKA Elmi KONFRANSI keçirilmişdir. Fakültənin iki tələbəsi bu konfransda iştirak etmişdir. https://soyqirim.az/link/8784

1 noyabr 2022-ci ildə Azərbaycan Dövlət İqtisad Universiteti Tədqiqat Mərkəzlərinin İşinin Əlaqələndirilməsi və Təşkili şöbəsi UNEC Qarabağ iqtisadi Araşdırmalar Mərkəzinin təşkilatçılığı ilə 8 noyabr – Zəfər Gününə və Şuşa ilinə həsr olunmuş **“Şuşanin sosial-iqtisadi dirçəldilməsi – Azərbaycanın tərəqqisinin yeni zirvəsidir”** adlı ümumrespublika elmi məqalə müsabiqəsi keçirilib. 5 tələbənin məqaləsi çap olunub.
https://news.unec.edu.az/xeber/100-elm/9346-shushanin-sosial-iqtisadi-dircheldilmesi-azerbaycanin-tereqqisinin-yeni-zirvesidir-adli-meqale-musabiqesinin-galibleri-mueyyen-edilib

2 noyabr 2022-ci ildə Tarix və onun tədrisi metodikası kafedrasının əməkdaşları, həmçinin Tarix müəllimliyi, Tarix və coğrafiya müəllimliyi ixtisaslarında təhsil alan bir qrup tələbə **Xalq Təhsil Muzeyi**nə ekskursiya etdilər. https://www.sdu.edu.az/az/news/2314

2 noyabr 2022-ci ildə muzeyin yaranmasının ildönümü ərəfəsində bir qrup tələbə dekan müavini Fəridə Cəbrayılovanın rəhbərliyi ilə **Sumqayıtın Tarixi Muzeyi**nə ekskursiya ediblər. https://sdu.edu.az/az/news/2310

28 noyabr 2022-ci ildə **“İkinci Qarabağ müharibəsindən sonra tarixi abidələrin bərpası”** mövzusunda Sosial Elmlər üzrə III Beynəlxalq Akademik Tədqiqatlar konfransı onlayn şəkildə keçirildi. Video konfransa 21 ölkədən olan iştirakçılar qoşulmuşlar. Fakültənin 3 tələbəsi sertifikatlarla təltif olundu.

21 dekabr 2022-ci ildə Bakı Avrasiya Universiteti **“Keyfiyyət təminatı sistemində vəzifə və öhdəliklər”** adlı Tələbə elmi konfransı keçirilmişdir. Bölmə iclaslarında tələbələr xarici dillərdə təqdim etdilər. 18 tələbə sertifikatlarla təltif olunublar. https://baau.edu.az/az/article/baau-da-keyfiyyet-teminati-sisteminde-vezife-ve-ohdelikler-telebe-elmi-konfransi-87

7-9 yanvar 2023-cü ildə Türkiyədə onlayn şəkildə 25 ölkənin iştirak etdiyi **VIII Beynəlxalq Dəyişən Dünyada Humanitar və Sosial Elmlər konfransı** keçirilmişdir. Konfransda tələbəmiz “Oğuz boyları” mövzusu ətrafında uğurla çıxış etdi. Konfransın sonunda tələbəmizə sertifikat təqdim olunmuşdur.

16 fevral 2023-cü ildə Türkiyənin İKSAD institutu və Bakı Avrasiya Universitetinin təşkilatçılığı ilə "10-cu Avrasiya Zirvəsi Elmi Tədqiqatlar və İnnovasiyalar" Beynəlxalq

konqresi baş tutdu. 28 ölkədən nümayəndələrin iştirak etdiyi konqresdə SDU tələbəsi Prezidentimizin Qərbi Azərbaycana Qayıdış Konsepsiyasından söz açmışdır.
**https://baau.edu.az/az/article/baau-da-10-cu-avrasiya-zirvesi-elmi-tedqiqatlar-ve-innovasiyalar-konqresinin-acilisi-olub-100**

27 fevral 2023-cü ildə SDU-nun Elmi kitabxanasında fakültənin təşkilatçılığı ilə tələbələr arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş **intellektual bilik yarışı** keçirildi. Yarış 3 turda keçirildi. Hər turda Azərbaycan xalqının Ümummili Lideri Heydər Əliyevin həyat və fəaliyyəti, Ulu Öndərin rəhbərliyi ilə ölkədə aparılan dövlət quruculuğu prosesi və islahatları əks etdirən 12 sual səsləndirildi. https://www.sdu.edu.az/az/news/2432

28 fevral 2023-cü ildə SDU-da İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi və SUP.VC şirkətinin təşkilatçılığı ilə **İNNOVATİV PEŞƏLƏRİN TƏŞVİQİ**nə dair panel müzakirəsi keçirildi. Tədbirdə SDU-nun professor-müəllim heyəti ilə yanaşı, TEC-nin üzvləri və Rəqəmsal İnkişaf Agentliyinin layihə rəhbəri Gülnar Mirhüseynova, ASAN İnnovativ İnkişaf Mərkəzinin rəhbəri Hasil Abbasov, ekspert Vüsal Kərimli iştirak etdilər.
https://www.sdu.edu.az/az/news/2437

10 mart 2023-cü ildə təşkil olunan «Təmiz şəhər» ASC-nin üç müxtəlif istehsal müəssisələrinə ekskursiya tələbələr üçün maraqlı keçdi.
https://www.sdu.edu.az/az/news/2467

13 mart 2023-cü ildə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı Kimya və biologiya fənnləri üzrə keçirilən fənn olimpiadasında TEC üzvləri iştirak etmişlər (75 tələbədən 6 tələbə qalib oldu) https://www.sdu.edu.az/az/news/2473

15 mart - 5 aprel 2023-cü ildə Kazan Dövlət Energetika Universitetinin 55 illik yubileyinə həsr olunmuş **“Müasir Dünyada Yüksək Texnologiyaların Uğurları”** adlı **I Beynəlxalq Olimpiada**-da Sumqayıt Dövlət Universitetinin 10 tələbəsi iştirak etmişdir. Müsabiqənin nəticələrinə əsasən 40 beynəlxalq universitet arasından Sumqayıt Dövlət Universiteti **III yerə** layiq görülmüşdür. Olimpiada təşkilatçıları SDU-nun Xarici dillər kafedrasına təbrik məktubu ünvanlayaraq qalib gəlmiş tələbələri, onların elmi rəhbərlərini, SDU-nun rəhbərliyini bu uğur münasibətilə təbrik etmiş və iki universitetin Xarici dillər kafedrası arasında əməkdaşlığı davam etdirməyi, gələcəkdə tələbə forumlarının birgə keçirilməsini təklif etmişlər. https://www.sdu.edu.az/az/news/2516

27 Mart 2023-cü ildə Sumqayıt şəhər Gənclər evində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi və SUP.VC şirkətinin təşkilatçılığı ilə vörkşop keçirildi. Tədbirdə SUP.VC şirkətinin direktoru Rəşad Eyvazov, İnnovasiya üzrə ekspert Vüsal Kərimli, bütün fakültələrin TEC rəhbərləri və üzvləri olan tələbələr iştirak etdilər.
https://www.sdu.edu.az/az/news/2465

27 mart 2023-cü ildə Türkiyədə onlayn şəkildə 21 ölkənin iştirak etdiyi III Beynəlxalq **"Artemis"** Humanitar və İctimai Elmlər Konfransı keçirilmişdir. Konfransda tələbələrimiz Krım tatarları və Axiska türkləri deportasiyası mövzuları ətrafında uğurla çıxış etmişlər. 2 tələbə sertifikatlarla təltif olunmuşlar. https://conferencealerts.com/show-event?id=252067

4 aprel 2023-cü ildə Qərbi Kaspi Universitetində **“Beynəlxalq yaz mühazirələri”** çərçivəsində Almaniyanın Schmalkalden Universitetinin professoru Dr. Jürgen Gemeinhardtdın qonaq olduğu mühazirədə İqtisadiyyat və idarəetmə fakültəsinin TEC üzrə elmi rəhbəri dos. Təranə Əhmədova və fakültənin 5 tələbəsi iştirak etmiş və sertifikatlarla təltif olunmuşdular. https://www.sdu.edu.az/az/news/2483

6 aprel 2023-cü ildə Innovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi və SUP.VC şirkətinin təşkilatçılığı ilə regionlar üçün yeni **inkubasiya proqramına** aid görüş keçirildi. İnkubasiya proqramının məqsədi regiondakı startap ideyalarını inkişaf etdirmək, ideyanı işlək məhsula çevirmək və yeni innovativ biznes yaratmaqdır.
https://www.sdu.edu.az/az/news/2489

7 aprel 2023-cü ildə Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında **"Türkmənçay müqaviləsi – 195"** adlı konfransda 14 tələbəmiz çıxış etdi. https://www.sdu.edu.az/az/news/2494

8 aprel 2023-cü ildə SDU Tarix və coğrafiya fakültəsinin bir qrup tələbəsi Türkiyənin İzmir şəhərində onlayn formatda keçirilən **"Dəyişən dünyada elm, sosial və sağlıq elmləri"** IX beynəlxalq konfransında iştirak etdilər. Tələbələrin tezisləri beynəlxalq hakimlər tərəfindən 9 bal dəyərində qiymətləndirildi. İki gün davam edən konfransın sonunda uğurla çıxış edən müəllim və tələbələrimiz müvafiq sertifikatlara layiq görüldülər.
https://www.sdu.edu.az/az/news/2495

13-14 aprel 2023-cü ildə **"INNOLAND"** İnkubasiya və Akselerasiya Mərkəzində keçirilən "EnergyTech" hakatonunda Mühəndislik fakültəsinin 2 tələbəsi iştirak etmişdir. https://azertag.az/xeber/2571716

Azərbaycan Respublikasının Kosmik Agentliyi (Azərkosmos) və Elm və Təhsil Nazirliyinin birgə həyata keçirdiyi **"CanSat Azərbaycan 2023" model peyk müsabiqəsində** uğurla iştirak edən SDU komandasının təklif etdiyi layihə 10 ən yaxşı layihələr sırasına seçilib. SDU tərəfindən 1000 man. maliyyə dəstəyi almışdır. Komandanın üzvləri: Nəcəfli Amin İlqar oğlu (qr.651A), Mədədzadə Simuzər Sahib qızı (M653), Cəfərli Səxavət Sərdar oğlu (651)
https://azertag.az/xeber/CanSat_Azerbaycan_2023_musabiqesinin_finali_kechirilecek-2612942

8 aprel 2023-cü ildə universitet daxili riyaziyyat fənni üzrə I–III kurs tələbələri arasında Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş olimpiada keçirildi. Açıq suallar şəklində təşkil olunan olimpiada zamanı 100-dən çox tələbə 3 saat ərzində sualları cavablandıraraq yüksək bilik nümayiş etdirdilər. Aprelin 20-də olimpiadanın qaliblərinin mükafatlandırılması mərasimi keçirildi. https://sdu.edu.az/az/news/2491

12 aprel 2023-cü ildə **"Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi"** mövzusunda keçirilən elmi-praktiki seminarda fakültə TEC üzvlərinin bir qismi iştirak etmişdirlər. https://www.sdu.edu.az/az/news/2497

18-19 aprel 2023-cü ildə Ali Neft Məktəbində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş **"Rəqəmsal transformasiya-2023"** Tələbə və gənc tədqiqatçıların IV Beynəlxalq elmi konfransında **13** nəfər tələbəmiz iştirak etmişdir.
https://tehsil-press.az/index.php?newsid=76482

27 aprel 2023-cü ildə AƏSMA-da TEC-nin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş **"İnsan kapitalına investisiya qoyuluşu və onun səmərəliliyinin qiymətləndirilməsi"** mövzusunda bakalavr və magistrantların Respublika elmi-praktik konfransı keçirilib. 21 tələbəmiz (17 Tarix və coğrafiya, 3 İqtisadiyyat və idarəetmə, 1 Filologiya) bu konfransda çıxış etmiş və sertifikatlara layiq görülmüşlər
.https://tehsil.biz/news/az/58329/ASMA-da-bakalavr-v-magistrantlarn-Respublika-elmi-praktik-konfrans-keirilib-FOTO

2 may 2023-cü ildə SDU-da İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin dəstəyi və SUP.VC şirkətinin təşkilatçılığı ilə **"Komanda quruculuğu"** mövzusunda tədbir keçirildi. Tədbirdə SUP.VC şirkətinin direktoru Rəşad Eyvazov, İnnovasiya üzrə ekspert Vüsal Kərimli, bütün fakültələrin TEC rəhbərləri və üzvləri olan tələbələr iştirak etdilər.
https://www.sdu.edu.az/az/news/2523

3 may 2023-cü ildə Üzeyir Hacıbəyli adina Baki Musiqi Akademiyasi Tələbə Elmi Cəmiyyəti Ümummilli Lider Heydər Əliyevin 100 illiyiyə həsr olunan **"Müasir musiqi sənətinin problemləri"** mövzusunda tələbələrin Beynəlxalq Elmi-Praktiki Konfransını keçirmişdi. 1 tələbəmiz – Qarayev Cəlal sertifikatla təltif olunmuşdur. https://musicacademy.edu.az/az/kheberler/konfranslar/3370-konfranslar-3-4may-2023.html

04 may 2023-cü ildə ADPU-da Ümummilli lider H.Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “**Ekologiyanın müasir problemləri”** mövzusunda Elmi seminarda Əhmədli Roza məruzə ilə çıxış etmiş və diplomla mükafatlandırılmışdır.

08 may 2023-ci ildə UNEC-in Zaqatala filialında “H.Əliyevin görmək istədiyi universitet” mövzulu Respublika elmi-praktik konfransına fakültənin IV kurs tələbəsi Hümbətova Aysu 1 məruzə göndərmişdir.
https://unec.edu.az/unec-de-heyder-eliyevin-gormek-istediyi-universitet-movzusunda-beynelxalq-elmi-konfrans-kecirilib/

12 may 2023-cü ildə Naxçıvan Dövlət Universitetinin keçirdiyi **“Heydər Əliyev və Azərbaycanda ali təhsil”** Respublika elmi konfransı əyani və videobağlantı formatında baş tutmuşdur. 2 tələbə videobağlantı ilə konfransa çıxış etdilər.

https://nuhcixan.az/news/elm-tehsil/83980-naxcivan-muellimler-institutunda-respublika-elmi-konfransi-kecirilib

15 may 2023-cü ildə SDU-da TEC-nin təşkilatçılığı ilə **“Canlıların müasir bölgüsündə göbələklərin yeri, ekoloji funksiyası və istifadə imkanları”** mövzusunda elmi-praktiki seminar keçirildi. Seminarda AR ETN-nin Mikrobiologiya İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü prof. Pənah Muradov, həmin institutun Mikrobioloji biotexnologiya laboratoriyasının müdiri prof. Könül Baxşəliyeva və SDU-nin Biologiya və onun tədrisi metodikası kafedrasının dosenti Nizami Namazov çıxış etdilər.
**https://www.sdu.edu.az/az/news/2554**

18 may 2023-cü ildə Sumqayıt Dövlət Universitetində Tələbə Elmi Cəmiyyətinin təşkilatçılığı ilə SDU Enactus komandasının **“Gocraft” layihəsi** haqqında müəllim və tələbə heyəti üçün infosessiya keçirildi. https://sdu.edu.az/az/news/2563

19 may 2023-cü ildə Sumqayıt Dövlət Universitetində Elm və Təhsil Nazirliyi ilə Code Academy Tədris müəssisəsinin birgə təşkilatçılığı və Rəqəmsal inkişaf və Nəqliyyat Nazirliyinin dəstəyi ilə # Codeyourfuture layihəsinin həyata keçirilməsinə başlanılmışdır. 4 qrupda SDU-nun 64 tələbəsi #codeforfuture layihəsi dərslərində uğurla iştirak edir, şəbəkə administratoru və veb proqramlaşdırma istiqamətləri üzrə tədris həyata keçirilir.
https://www.sdu.edu.az/az/news/2571

23 may 2023-cü ildə AƏSMA-da TEC-nin təşkilatçılığı ilə Heydər Əliyevin 100 illiyinə həsr olunmuş universitetlərarası intellektual yarışında SDU TEC komandası I yerin qalibi oldu. https://www.sdu.edu.az/az/news/2575

25 may 2023-cü ildə UNEC-in təşkilatçılığı və Ege Universitetinin dəstəyi ilə “Heydər Əliyev: İqtisadi strategiya modeli” mövzusunda Tədqiqatçı Tələbələrin I Beynəlxalq Elmi Konfransı (ISCORS) keçirilib. Konfransa fakültədən 3 məruzə materialı göndərilmiş və 3 tələbə iştirak etmişdir. Seyfullayev Rusif (qr.720), Dəmirova Ayidə (qr.750), Osmanov Nicat İlqar oğlu (qr.743).
https://news.unec.edu.az/xeber/100-elm/10290-bold-red-tedgigatchi-telebelerin-i-beynelxalg-elmi-konfransi-iscors-kechirilib-bold-red

25 may 2023-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) təşkilatçılığı və Ege Universitetinin dəstəyi ilə **“Heydər Əliyev: İqtisadi Strategiya Modeli”** mövzusunda Tədqiqatçı Tələbələrin I Beynəlxalq Elmi Konfransı (ISCORS) keçirildi. Fakültənin 2 tələbəsi sertifikatla təltif olundu.
https://www.facebook.com/unecedu/?locale=az_AZ

SDU-nun 2014-cü ildən üzvü olduğu beynəlxalq “ENACTUS” proqramına dünya üzrə 50-yə yaxın ölkə, 1600-dan çox ali təhsil müəssisəsi və 67000-dən çox tələbə qoşulmuşdur.

28 fevral – 1 mart tarixlərində 2020-ci il Enactus Azərbaycan Qış Məktəbində SDU daxil olmaqla Azərbaycanın 20 universitetini təmsil edən 150 nəfər iştirak edib. 25-26 avqust tarixlərində keçirilən “2021 Enactus Azərbaycan Milli yarışı” çərçivəsində komanda

respublika üzrə 17 ali təhsil müəssisəsi arasında **II yerə** layiq görülmüş və sertifikatlarla təltif olunmuşdur. Ən yaxşı davamlı inkişaf layihəsi nominasiyasında SDU-nin təqdim etdiyi layihə qalib olmuşdur. 10 dekabr 2022-ci ildə **Gənc Sahibkarların II Forumu** keçirildi. Tədbirdə müvafiq dövlət qurumlarının və gənclər sahəsində fəaliyyət göstərən ictimai təşkilatların nümayəndələri, eləcə də sahibkarlıq fəaliyyəti ilə məşğul olan və bu sahəyə maraq göstərən gənclər iştirak etdilər. Forumda SDU-nun ENACTUS komandası layiqincə təmsil olundu.
https://www.sdu.edu.az/az/news/1980

26 dekabr 2022-ci ildə SDU-da Enactus Azərbaycan proqramının info-sessiyası baş tutdu. https://www.sdu.edu.az/az/news/2392

29 yanvar 2023-cü ildə Enactus Qlobalın təşkilatçılığı ilə keçirilmiş “1 race 4 oceans” layihəsinin yarım–final mərhələsinə 4 universitet arasında SDU da vəsiqə qazanmışdır.
https://www.picuki.com/media/3026482850536664130

25-28 may 2023-cü ildə Mingəçevirdə keçirilən «Enactus Biznes Məktəbi» adlı tədbirdə SDU-dan 3 (üç) tələbə iştirak edərək Azərbaycanın 21 universitetindən müxtəlif komandalar arasında SDU TECnin yaratdığı “SDU Enactus“ komandası yarışaraq 2-ci liqada qalib gəlmiş və final mərhələsinə vəsiqə qazanmışdır. https://www.sdu.edu.az/az/news/2589